# Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramının (2002—2005-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Ölkə iqtisadiyyatında özəl bölmənin inkişafını sürətləndirmək, bu sahəyə investisiyaların cəlb olunmasını həvəsləndirmək, kiçik və orta sahibkarlığa dövlət köməyinin səmərəliliyini artırmaq məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002—2005-ci illər) təsdiq edilsin (əlavə olunur).

2. Dövlət Proqramının baş icraçısı Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə hər ilin dövlət büdcəsinin layihəsində müvafiq vəsaitin ayrılmasını təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti Dövlət Proqramının İcrasını təmin edən müvafiq qərarlar qəbul etsin.

5. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Prezidenti<br>
Heydər ƏLİYEV.<br>
Bakı şəhəri, 17 avqust 2002-ci il.